# PRESS RELİZ

**Gender məsələləri üzrə əlaqələndirici hökumət və özəl şirkətlərin nümayəndələri üçün "Gender bərabərliyi və sahibkarlığın inkişafı" mövzusunda təlim**

12, 13, 14, 18, 19, 20 dekabr 2018-ci il tarixlərində, ABŞ İnkişaf Agentliyinin dəstəyi ilə Qadın Sahibkarlığının inkişafı layihəsi çərçivəsində Bakıda, Holiday İnn otelində gender məsələləri üzrə əlaqələndirici hökumət və özəl şirkətlərin nümayəndələri üçün 3 günlük təlimlər keçirilmişdir. Təlimlər hökumət və özəl şirkətlərin nümayəndələrindən ibarət 2 qrup üçün nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev təlimi giriş nitqi ilə açdı.

Təlimdə 8 modul üzrə aşağıdakı mövzular müzakirə olunmuşdur:

1. Mövcud Qadın Siyasəti
2. Gender bərabərliyinin təmin edilməsi istiqamətində milli qanunvericilik
3. Gender bərabərliyinin təmin edilməsi istiqamətində stereotiplərlə mübarizə
4. CEDAW" (konvensiyanın açıqlanması və CEDAW Komitəsinin fəaliyyəti)
5. Azərbaycanda Sahibkarlıq sahəsində Gender durumu
6. Şirkətlərdə Gender siyasəti necə qurulmalıdır
7. Dövlət qurumları Qadın sahibkarlığını necə dəstəkləyə bilər
8. İri şirkətlər Qadın sahibkarlığını necə dəstəkləyə bilər

Hər bir moduldan sonra sual-cavab və müzakirə sessiyası olmuşdur.

Təlimçilər biznes, CEDAW (Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə), gender problemləri, gender bərabərliyi mövzularında təqdimatla çıxış etmişlər.

Təlimin sonunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov təlim iştirakçılarını sertifikatla təltif etmişdir.